# Olimpiada qalibləri olan şagirdlər Azərbaycanın ən yaxşı kadrları olacaq

## Respublika fənn olimpiadalarının qalibləri mükafatlandırıldı

İyulun 14-də respublika fənn olimpiadalarının qalibləri mükafatlandırılıb. 8 fənn üzrə təşkil edilən olimpiadalarda 84 qızıl, 166 gümüş, 248 bürünc olmaqla, ümumilikdə 498 şagird medal qazanıb. Respublika fənn olimpiadalarında ən yüksək nəticə göstərən 9 qızıl medalçı həm də "Birincilərin birincisi" elan edilərək təltif olunub. Şagirdlərin mükafatlandırılması mərasimində Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdir müavini Nigar Hacıyeva, gənclər və idman naziri Fərid Qayıbov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Şahin Seyidzadə, dövlət qurumlarının rəsmiləri, millət vəkilləri, ali təhsil müəssisələrinin rektorları və digər qonaqlar iştirak edib.

Tədbirdə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev olimpiadaların təşkil edildiyi ilk illəri xatırladıb. Onun sözlərinə görə, əvvəllər çox az sayda məktəblinin qatıldığı proses artıq bir neçə ildir hərəkata çevrilib. Nazir bildirib ki, son 7-8 ildə olimpiadalarda ən uğurlu nəticələr əldə edilib: "Təxminən 15 ilə olimpiada qalibləri olan şagirdlər Azərbaycanın ən yaxşı kadrları olacaq. Bilik və bacarıqların inkişafı milli sərvətimizdir. Ölkənin iqtisadiyyatı, sosial inkişafı məhz bu sərvətlərdən necə istifadə etməyimizdən asılı olacaq".

Nazir olimpiada qaliblərinin dünyanın nüfuzlu universitetlərinə qəbulunu bu müsabiqələrin uğuru kimi qiymətləndirib. O, həmin şagirdlərin qəbul imtahanları göstəricilərinin Azərbaycanda da yüksək olduğunu vurğulayıb. Beynəlxalq olimpiada qaliblərinin müsabiqədənkənar ali məktəbə qəbulunun sui-istifadələrə gətirib çıxaracağı ilə bağlı vaxtilə səsləndirilən iddiaları xatırladıb: "Olimpiada qalibləri Azərbaycanda ali məktəblərə qəbul imtahanlarında da iştirak edir. Onların topladıqları bal 650-dən çox olur".

Nazir hesab edir ki, istedadlı uşağa daha çox pul xərcləmək lazımdır: "Ailənin maddi vəziyyətindən asılı olmayaraq həmin uşaqları vahid məktəbdə toplayıb onları rəqabətli məzmunla hazırlamaq önəmlidir".

Ruhiyyə DAŞSALAHLI









